**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# QƏRAR

**“Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 27 may 2024-cü il

№ 285

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 27 may
tarixli 285 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Standartlaşdırma haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 6.6-cı maddəsinə uyğun olaraq milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **milli standartlaşdırma qurumu** - Qanunun 1.0.18-ci maddəsinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxs;

1.2.2. **milli standartlaşdırma proqramı** - dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması məqsədilə milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən proqram.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunda nəzərdə tutulmuş mənaları ifadə edir.

1.4. Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə uyğun olmalı, müasir elmi araşdırmaların nəticələrinə əsaslanmalı və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə cavab verməlidir.

1.5. Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən üçillik milli standartlaşdırma proqramı əsasında həyata keçirilir.

## 2. Milli standartlaşdırma proqramının formalaşdırılması

2.1. Milli standartlaşdırma qurumu tərtib edilməli olduğu il iyunun 1-dək milli standartlaşdırma proqramının (bundan sonra – Proqram) formalaşdırılması haqqında qərar qəbul edir və növbəti 5 (beş) iş günü müddətində bu barədə məlumatı standartlaşdırma subyektlərinin tanış olması üçün özünün rəsmi internet saytında yerləşdirir.

2.2. Proqramın layihəsi aşağıdakılar əsasında formalaşdırılır:

2.2.1. Azərbaycan Respublikasının normativ hüquqi aktlarından irəli gələn tələblər;

2.2.2. standartlaşdırma üzrə texniki komitələrin iş planları;

2.2.3. aidiyyəti dövlət orqanlarının (qurumlarının), hüquqi və fiziki şəxslərin (bundan sonra – sifarişçi təşkilatlar) təklifləri (sifarişləri);

2.2.4. Azərbaycan Respublikasının texniki reqlamentlərinin əsas tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə qəbulu nəzərdə tutulmuş istinad edilmiş standartlar;

2.2.5. milli standartlaşdırma qurumu, səlahiyyətinə standartlaşdırma obyektləri daxil olan dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr tərəfindən standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılmasının nəticələri;

2.2.6. Azərbaycan Respublikasının üzvü olduğu beynəlxalq və regional standartlaşdırma təşkilatları tərəfindən qəbul edilmiş standartlar əsasında dövlət standartlarının qəbulunun zərurəti.

2.3. Proqrama dair bu Qaydanın 2.2.3-cü yarımbəndinə əsasən hazırlanmış təkliflər (sifarişlər) Proqramın tərtib edildiyi il sentyabrın 1-dək milli standartlaşdırma qurumuna təqdim edilir. Təkliflər (sifarişlər) standartların hazırlanmasının aktuallığını əsaslandıran və bu Qaydanın 3.2-ci bəndində göstərilən məlumatları özündə ehtiva etməlidir.

## 3. Proqramın layihəsinin işlənilib hazırlanması, razılaşdırılması və təsdiqlənməsi

3.1. Proqramın layihəsi milli standartlaşdırma qurumu tərəfindən tərtib edilməli olduğu il oktyabrın 15-dək formalaşdırılır.

3.2. Proqramın layihəsinə aşağıdakılar daxildir:

3.2.1. standartların beynəlxalq təsnifat kodu;

3.2.2. standartların layihələrinin adı;

3.2.3. standartın işlənilməsi üçün əsas;

3.2.4. əsas normativ baza;

3.2.5. işin icra müddəti;

3.2.6. maliyyə mənbəyi;

3.2.7. təklif verən sifarişçi təşkilatın adı;

3.2.8. xarici iqtisadi fəaliyyətin mal nomenklaturası.

3.3. Milli standartlaşdırma qurumu Proqramın layihəsini rəy və təkliflərin təqdim edilməsi məqsədilə bu Qaydanın 3.1-ci bəndində nəzərdə tutulmuş tarixdən 5 (beş) iş günü müddətində texniki komitələrə və aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir. Texniki komitələr və aidiyyəti dövlət orqanları (qurumları) Proqramın layihəsinə dair rəy və təkliflərini onlara daxil olduğu gündən 15 (on beş) iş günü müddətində bildirirlər. Bu müddət ərzində münasibət bildirilmədikdə layihə razılaşdırılmış hesab olunur.

3.4. Milli standartlaşdırma qurumu Proqramı tərtib edildiyi il dekabrın 15-dək təsdiq edir və özünün rəsmi internet saytında dərc edir. Proqramın icrasına növbəti il yanvarın 1-dən başlanılır.

3.5. Növbəti Proqramın hazırlanmasına qüvvədə olan Proqramın icra müddətinin sonuncu ilində bu Qaydanın 2-ci və 3-cü hissələrinə uyğun olaraq başlanılır.

3.6. Proqramın forması bu Qaydanın əlavəsinə uyğun olaraq təsdiq edilir.

## 4. Proqramda dəyişiklik edilməsi

4.1. Proqramda dəyişikliklər il ərzində bu Qaydanın 2.2-ci bəndində qeyd edilmiş əsaslar üzrə daxil olmuş təkliflər (sifarişlər) nəzərə alınmaqla həyata keçirilir.

4.2. Proqramda dəyişikliklər dedikdə, mövcud Proqramın mətnində düzəlişlər edilməsi və yeni standartların qəbul olunmasına dair Proqrama əlavələr edilməsi nəzərdə tutulur.

4.3. Təkliflər (sifarişlər) yeni standartın qəbul olunmasının aktuallığını və ya mövcud Proqramda dəyişiklik edilməsini əsaslandıran müraciətdən ibarət olur.

4.4. Milli standartlaşdırma qurumu daxil olan təklifləri (sifarişləri) 3 (üç) iş günü müddətində aidiyyəti texniki komitələrə və aidiyyəti dövlət orqanlarına (qurumlarına) münasibət bildirilməsi üçün göndərir və onlar tərəfindən həmin təkliflərə (sifarişlərə) 15 (on beş) iş günü müddətində münasibət bildirilir. Texniki komitələr və aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən təkliflərə (sifarişlərə) münasibət bildirildikdən sonra milli standartlaşdırma qurumu növbəti 15 (on beş)

iş günü müddətində Proqramda dəyişiklik edilməsini məqsədəuyğun hesab etdikdə, Proqramda dəyişiklik edilməsinə dair qərar qəbul edir.

4.5. Milli standartlaşdırma qurumu qəbul edilmiş qərar barədə 3 (üç) iş günü müddətində sifarişçi təşkilata məlumat verir və həmin qərarı rəsmi internet saytında dərc edir.

4.6. Proqramda dəyişiklik edilməsinə dair təklifi milli standartlaşdırma qurumu məqsədəuyğun hesab etmədikdə, 3 (üç) iş günü müddətində əsaslandırılmış məlumatı sifarişçi təşkilata, texniki komitələrə və aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir.

## 5. Yekun müddəa

Milli standartlaşdırma qurumu 6 (altı) ayda bir dəfədən az olmayaraq Proqram üzrə görülmüş işlər barədə məlumatları öz internet saytında yerləşdirir.

"Milli standartlaşdırma proqramının formalaşdırılması
və onda dəyişiklik edilməsi Qaydası"na

**əlavə**

## Milli standartlaşdırma proqramı

| Sıra №-si | BSK-Beynəlxalq standartlar kodu | Dövlət standartı layihəsinin adı | İşlənilib hazırlanması üçün əsas | Əsas normativ baza | İşin yerinə yetirilməsi müddəti | | Maliyyə mənbəyi | Sifarişi verən təşkilat | İqtisadi fəaliyyət növü üzrə məhsulun təsnifat kodu |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | işin başlanılması | təsdiq üçün layihənin son variantının milli standartlaşdırma qurumuna təqdim edilməsi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | | | |
| | | | | | | | | | |

________________________